**UOT-101.1:316**

**Məhsəti Cəfərova**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, dissertant***
mehseti.ceferova@inbox.ru

# ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTLƏR HAQQINDA FƏLSƏFİ BAXIŞLARDAKI FƏRQLƏR

*Məqalədə milli mədəniyyətlərin təşəkkülü, formalaşması və inkişafinda həm mühit, həm də təkamül baxımından qarşılıqlı əlaqələrin əhəmiyyəti özünü göstərir. Elitar mədəniyyətdə məkan və şəraitin yeri mühüm olduğu kimi, kütləvi mədəniyyətdə də məkan və şəraitin əhəmiyyəti böyükdür. Elitar incəsənətin formalaşmasında mühit, şərait kimi, ayrı-ayrı fərdlərin yüksək yaradıcılıq bacarıqları getdikcə millilikdən çıxaraq bəşəriliyə çevrilir.*

***Məqsəd*** - tədqiqat işinin məqsədi elitar və kütləvi mədəniyyətlərin sosial-fəlsəfi aspektdə tədqiqi, qarşılıqlı əlaqəliliyin müsbət təsirinin təyini, səciyyəvi xüsusiyyətlərin təhlili və bu mədəniyyətlərin innovasiyalılıqla bilavasitə əlaqədarlığını müqayisəli araşdırmaq və nəticələr əldə etmək.

***Metodologiya*** - elitar və kütləvi mədəniyyətlərin sosial-fəlsəfi dərkinə fərqli yanaşmalara, millilik və bəşəriliklə bağlı müqayisəli baxışlara, elitarlıqla kütləvilik arasında müxtəlif tarixi dövrlərdə baş vermiş ziddiyyətlərə aid fəlsəfi fikir və nəzəriyyələrin tədqiq edilməsi.

***Tədqiqatın nəticələri-e***litar və kütləvi mədəniyyətlərin təşəkkülü, inkişafı və bəşər mədəniyyətində mühüm əhəmiyyətinin müxtəlif fəlsəfi cərəyanlar tərəfindən fərqli dəyərləndirilməsi təhlil edilmişdir.

***Açar sözlər:*** *elitar və kütləvi mədəniyyət,idrak,zaman,kütləvi informasiya vasitələri,yenilik, nəzəriyyə,* sivilizasiya

## Giriş

Mədəniyyət insanlar tərəfindən yaradılan ikinci və süni təbiətdir. Ümumiyyətlə, mədəniyyət termini fəlsəfə, kulturologiya, tarix, etnologiya, dilçilik (etnolinqvistika), psixologiya, politologiya, iqtisadiyyat, pedaqogika, sənətşünaslıq və s. kimi elmlərin əsas araşdırma obyektinə çevrilmişdir. Demək olar ki, insanların müsbət anlamda əldə etdiyi bütün vərdiş və bacarıqları mədəniyyət adı altında birləşdirilmişdir. İnsanın yaradıcı fəaliyyətini özündə təcəssüm etdirən mədəniyyət müxtəlif forma və üsulları ilə fərqlənir. Yaradıcı insanların xarakterindən, biliyindən, bacarıq və vərdişlərindən asılı olaraq mədəniyyət müxtəlif formalarda təzahür edir.

Tədqiqatçı-alimlər zaman-zaman mədəniyyətin fəlsəfi dərkinə müxtəlif mövqelərdən yanaşmış, millilik və bəşərilikdəki fərqlərə müqayisəli baxışlarını bildirmişlər. Belə ki, J.Vikonun, İ.Kantın, G.V.Hegelin və Şellinqin elmi yanaşmalarında bu baxımdan maraqlı fikirlər mövcuddur (16, s. 5).

Müasir cəmiyyətdə kütləvilik və elitarlıq anlayışları böyük əhəmiyyət kəsb edir. Elitar mədəniyyətin mahiyyətini dərk etmək üçün elitar nəzəriyyənin anlamını qavramaq lazımdır. Tarix boyu filosoflar elitar cəmiyyət haqqında müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Bu, müxtəlif nəzəriyyələrin ortaq nöqtəsi cəmiyyətin azsaylı elit təbəqəsinin intellektual cəhətdən aktiv olması ideyasını müdafiə etmələridir.

Fəlsəfə tarixində elita haqqında irəli sürülmüş konsepsiyalar bioloji nəzəriyyələr, psixoloji nəzəriyyələr, psixoanalitik nəzəriyyələr, sosial-psixoloji nəzəriyyələr və texnokratik nəzəriyyələrdən ibarətdir. Elita haqqında irəli sürülmüş bioloji nəzəriyyələr R.Uilyamsın,

E.Boqardusun, psixoloji nəzəriyyələr Q.Cilbertin, B.Skinnerin, psixoanalitik nəzəriyyələr Z.Freydin, E.Eriksonun və ümumiyyətlə Freydizm cərəyanı tərəfdarlarının, sosial-psixoloji nəzəriyyələr Frommun, Q.Lassuelin və texnokratik nəzəriyyələr C.Bernxemin, C.Gelbreytin əsərlərində əsasən öz əksini tapmışdır.

Ümumiyyətlə, cəmiyyətin elitaya və kütləyə bölünməsi zərurətinə əsaslanan konsepsiya elitarizm adı altında məşhurdur. Elitarizm nəzəriyyəsi elitanın mövcudluğunu tanıyan, onu dəstəkləyən və həmçinin elitanın ideoloji sisteminin yaranmasına xidmət etməyə yönəlmişdir. Elitarizm nəzəriyyəsinin tərəfdarları aristokrat təbəqənin yaratdığı mədəniyyət nümunələrini böyük bir şövqlə müdafiə edirlər. İlkin elitarizm ideyalarının meydana gəlməsi tarixi olduqca qədimdir, hələ qədim dövrdə Yunanistanda Platon kalokaqatiya nəzəriyyəsini irəli sürmüşdür. Bəzi tədqiqatçılar bu nəzəriyyəni Platondan əvvəl Pifaqorun önə sürməsi qənaətindədir, lakin Platon bu nəzəriyyəyə yeni ab-hava verdi, onu daha da təkmilləşdirdi. Bu nəzəriyyəni Platondan əvvəl Pifaqor irəli sürsə də, nəzəriyyənin mükəmməl və geniş aspektdən işlədilməsi ideyası da məhz Platona məxsusdur. Platonun geniş şəkildə işlədiyi bu nəzəriyyədən Aristotel də bəhrələnmişdi. Platonun irəli sürdüyü "İdeal dövlət" nəzəriyyəsində insanlar yalnız bilik və bacarıqlarına, qabiliyyətlərinə görə bir-birindən fərqlənməlidirlər. Bu qabiliyyətlər fitri mahiyyət kəsb etdiyindən yalnız üstün qabiliyyətə malik olan insanlara incəsənətin və mədəniyyətin sirrlərini öyrətmək olar. Həmçinin də idarəetmə qabiliyyəti ilə fərqlənənləri bu sahədə ixtisaslaşdırmaq lazımdır. Beləliklə də, Platonun irəli sürdüyü "İdeal dövlət"də bilik və bacarıqları ilə fərqlənən elitar təbəqə meydana gəlir. "Platon fikirlərini yekunlaşdıraraq aşağıdakı nəticələrə gəlir: birincisi, ölkəni idarəetmək özü bir sənətdir. İkincisi, adamların anadangəlmə qabiliyyəti bir-birindən fərqlənir. Üçüncüsü, idarəetmə qabiliyyəti ilə fərqlənənlərə bu sənət öyrədilməli və onlar təlim keçdikdən sonra cəmiyyətin hakimləri olmalıdırlar. Dördüncüsü isə, bu adamlar idarəetmə sənətinə maksimum hazırlaşdıqdan sonra onlara mütləq hakimiyyət verilməlidir ki, qanunvericilik fəaliyyətləri təcrübədə reallaşdırıla bilsin" (20, səh. 109-110).

Şərq fəlsəfəsi tarixinə diqqətlə nəzər salsaq ilkin elitar nəzəriyyələrin 2500 il öncə meydana gəlməsi faktı ilə qarşılaşmış oluruq. Hələ e.ə. 551-479-cu illər arasında yaşamış məşhur Çin filosofu Konfutsinin ideologiyası da elə bu səpgidə hazırlanmışdı. Konfutsinin "alicənab ərlər" və yaxud da "idarəçilər" deyə haqqında bəhs etdiyi elit təbəqə etik və estetik cəhətdən də kamil olmasını biruzə verməliydi. Qədim dövrün ən məşhur Çin filosofu və mütəfəkkiri olan Konfutsi əxlaqi dəyərlərə, ali prinsiplərə riayət etməyəni alicənab insan hesab etmirdi, başqa sözlə, belə insanları elit təbəqəyə aid etmək məqsədyönlü olmazdı. Bu baxımdan da heç şübhəsiz ki, etik və estetik cəhətdən kamil olan insanların yaratdığı mədəniyyət nümunələri də mükəmməlliyi və kamilliyi ilə seçilməlidir. Dahi filosof fəlsəfi yaradıcılığının məhsulu olan "Lun yuy", yəni "Söhbətlər və mülahizələr" əsərində etik dəyərlərə xüsusi önəm verir, rəiyyətin "alicənab ərlər"ə sədaqətini yüksək dəyərləndirirdi. Konfutsinin yaratdığı fəlsəfi təlim olan Konfutsiçilik müasir dövrdə də Çin milli mədəniyyətində özünəməxsus bir mövqeyə malikdir.

Qərb fəlsəfəsində özünəməxsus yeri olan orta əsr filosofu və ilahiyyatçısı, tomizmin banisi Akvinalı Foma da elitar nəzəriyyənin tərəfdarlarından biri idi. Onun elit təbəqə haqqında irəli sürdüyü fikirlər "Bütpərəstlər əleyhinə külliyat" (1261-1264), "Teologiya külliyyatı" (1265-1273) adlı əsərlərində öz əksini tapmışdır. Fomanın gəldiyi qənaətə görə elitar təbəqə "Allah tərəfindən seçilmiş" insanlardan ibarət olmalıdır. Fomanın bu qənaətə gəlməsi heç də təsadüfi xarakter kəsb etmirdi. Çünki, Akvinalı Foma ortodoksal sxolastikanın əsasını qoyan xristian ilahiyyatçısı idi və xristian kilsəsinin mənafeyini müdafiə edirdi.

**Elitar və kütləvi mədəniyyətlərlə bağlı fərqli baxışlar**

Kulturologiyada elitar mədəniyyətə kütləvi mədəniyyətin antipodu kimi də baxılır. Kütləvi mədəniyyətdən fərqli olaraq elitar mədəniyyət cəmyyətin imtiyazlı qruplarının

mədəniyyətidir və mənəvi aristokratlıqla müşayiət olunur. Ümumiyyətlə, elitar mədəniyyət və kütləvi mədəniyyət arasında ziddiyyətlərin dərinləşməsi tendensiyası XX əsrdə son dərəcə gücləndi. Elitar mədəniyyət nəzəriyyəsinin əsas müddəaları alman filosofları Artur Şopenhauer (1788-1860) və onun davamçısı Fridrix Nitsşenin (1844-1900), həmçinin ispan filosofu Xose Orteqa-i Qassetin (1883-1955) fəlsəfi yaradıcılığında ehtiva olunmuşdur.

Şopenhauerin estetik fikirlərinə görə elitar mədəniyyətin əsas məqsədi insanları ruhən və mənəvi cəhətdən sakitləşdirmək xüsusiyyətinə malik olmaqdır. Bu, elitar mədəniyyətin yaratdığı estetik dəyərlər nəticəsində dünyəvi harmoniya özünün ən yüksək nöqtəsinə çatır. Şopenhauer 1844-cü ildə yazıb tamamladığı “Dünya iradə və təsəvvür kimi” əsərində estetik dəyərlərə toxunmuş, bu əsərdə estetik idrakın mühüm nüansları barədə tam təfərrüatı ilə məlumat vermişdir. O əsərdə göstərirdi ki, estetik mühakimə qabiliyyətinin tənqidində ən üstün şey ülvilik nəzəriyyəsidir: o, gözəllik nəzəriyyəsindən müqayisəyəgəlməz dərəcədə yaxşı alınmışdır və o biri kimi təkcə ümumi tədqiqat metodu vermir, həm də məsələnin həlli mənasında nəsə verir: onda məsələnin birinci həlli olmasa da, hər halda o, ona olduqca çox yaxınlaşır.

Müxtəlif filosofların yaradıcılığında elitar mədəniyyətin elmilik, fəlsəfilik, peşəkar təhsil, xüsusilə ali təhsil, klassik ədəbiyyat, xüsusilə poeziya, intellektual ədəbiyyat, təsviri incəsənət, klassik musiqi, teatr, etiket, elitar moda, insanın şəxsiyyət kimi təzahürü elementləri əks olunmuşdur.

Dahi alman filosofu Nitsşe qələmə aldığı “Musiqi ruhundan traqediyanın doğuşu” (1872), “İnsanı, həddən artıq insanı – azad ağıllar üçün kitab” (1878-1880), “Şən elm” (1882), “Vaqner məsələsi” (1888) kimi əsərlərində öz kulturoloji konsepsiyasını formalaşdırmışdır. Nitsşenin elitar mədəniyyət haqqında irəli sürdüyü konsepsiya “fövqəlinsan” ideyasında özünü açıq bir şəkildə biruzə verirdi. Dahi alman filosofu elitar mədəniyyət dedikdə “fövqəlinsan”ın, yəni cəmiyyətdə imtiyazlı vəziyyətə malik olan unikal insanın istedadının, qabiliyyətinin məhsulu olan mədəniyyət nümunələrini nəzərdə tuturdu. “Fövqəlinsan”ın meydana gətirdiyi mədəniyyət nümunələri estetik cəhətdən zəngin və dərin məna çalarlarını özündə ehtiva etmişdir.

Xatırladaq ki, elitanın milli, təsərrüfat idarəetmə elitası, ziyalı, maliyyə elitası kimi müxtəlif formaları mövcuddur. Elitanın müxtəlif növlərinin mövcud olmasına baxmayaraq elitar mədəniyyətin nümunələrində aristokrat təbəqənin mənafeyi müdafiə olunur. Bu barədə müasir elitar nəzəriyyələrin formalaşmasına güclü təsir göstərən nöqteyi-nəzərlərdən biri də F.Nitsşenin baxışlarıdır. F.Nitsşe dünyavi inkişaf prosesinin ilkin əsasını tarixin hakimiyyətə doğru cəhd göstərən qüvvələrində görürdü. Bu qüvvələr hakimiyyətdən “yaradıcı instinkt” kimi istifadə etmək istəyirlər. Müasir elitaristlərin konservativ qanadı F.Nitsşenin “Yer cənabları”, “Aristokratiyanın ali irqliyi” haqqındakı konsepsiyalarını qəbul edərək onun fikirləri ilə bölüşürlər. Bu konsepsiyanın əsas qaydalarından biri də odur ki, xalq bütün vasitələrlə - zorakılıq, din, qul əxlaqı ilə qul şəraitində saxlanılmalıdır.

F.Nitsşenin əsas tənqid hədəfi – elitanın hökmranlığına qarşı çıxış edən inqilabi qüvvələrdir.

Ümumiyyətlə, elita mürəkkəb quruluşa malikdir, elitanın strukturu iqtisadi elita, siyasi elita, bürokratik elita və ideoloji elitadan ibarətdir. İdeoloji elita özündə din, elm, təhsil və mədəniyyət kimi mühüm nüansları ehtiva edir. Elitar mədəniyyət də məhz ideoloji elitanın həmçinin ideoloji və yaradıcı fəaliyyəti nəticəsində təzahür edir. Elitar cəmiyyət konsepsiyasının müstəqil şəkildə formalaşmasında ispan sosioloqu, iqtisadçısı, mühəndisi Vilfredo Parento (1848-1923) və italyan alimi Hayetano Moska (1858-1941) mühüm rol oynamışlar.

Vilfredo Parentonun (1848-1923) 1901-ci ildə qələmə aldığı “Elitanın yüksəlişi və süqutu” adlı məşhur əsərində elitanın xarakterik xüsusiyyətləri və tipləri haqqında müfəssəl

məlumat verilmişdir. Həmçinin müəllif “Siyasi iqtisad kursu” (1898), “Sosialist sistemlər” (1902-1903), “Siyasi iqtisadın təlimi” (1906), “Ümumi sosiologiya dərsləri” (1916) adlı əsərlərində elitar məsələyə toxunaraq, elitar konsepsiyanın müxtəlif cəhətlərini analiz etmişdir.

Ümumiyyətlə, həm Vilfredo Parento və həm də Hayetano Moska hesab edirdilər ki, zənginliyi və istedadı ilə seçilən təbəqənin elitaya daxil edilməsi üçün ilk növbədə sosial mühit vacibdir. Yüksək şəxsi məziyyətləri və yaradıcılıq sahəsindəki üstünlükləri ilə seçilən elitanın dini, mənəvi və əxlaqi baxışları kimi estetik baxışları da üstün məziyyətlərə malikdir.

**Fəlsəfə tarixində elita haqqında müxtəlif nəzəriyyələr**

Fəlsəfə tarixinə diqqətlə nəzər yetirdiyimiz zaman ayrı-ayrı fəlsəfi cərəyanlarda elita haqqında müxtəlif nəzəriyyələrin irəli sürülməsinin şahidi oluruq. Volyuntarizm cərəyanı nümayəndələri iradəni insan psixologiyasında əsas amil hesab edərək cəmiyyət və təbiətin obyektiv qanunauyğunluqlarını inkar edir, tarixi prosesləri yalnız insan iradəsinin məhsulu kimi qiymətləndirirlər. Elita kütlələri özünün istədiyi istiqamətə yönəldərək tarixi özünün istədiyi kimi yaradır – volyuntaristlərin əsas tezisi budur.

Fatalistlər isə iddia edirlər ki, dünyada elə fövqəltəbii qüvvələr vardır ki, onlar tarixi prosesin ardıcıllığını, gedişini müəyyən edir və bunu Allah elitanın vasitəsi ilə reallaşdırır.

Məşhur alman filosofu, ekzistensializmin nümayəndəsi Karl Yaspers (1883-1969) “Tarixin mənası və təyinatı” adlı əsərində, alman fəlsəfə tarixçisi Osvald Şpenqler (1880-1936) “Qərbin tənəzzülü” (I cild 1918 – II cild 1922) adlı əsərində fransız sosioloqu Jan Bordiyarın (1929-2007) “Müasir dövrün illuziyaları” əsərində, rus-amerikan sosioloqu və kulturoloqu Pitirim Aleksandroviç Sorokinin (1889-1968) “İnsan. Sivilizasiya. Cəmiyyət” əsərində elitar təbəqənin müxtəlif problemlərinə toxunmuş, bu səpgidə mühüm ideyalar irəli sürmüşlər.

Amerikalı sosioloq Çarlz Rayt Millsə görə elit sinif hakim sinifdən fərqlidir. Millsə görə elita sinfi siyasi gücə malik kiçik bir qrupdur. Bu sinfə siyasətçilər, siyasi rəhbərlər və hərbi liderlər daxildir. Lakin hakim sinif birbaşa zənginlik və ya zora əsaslanan güc tətbiqindən irəli gəlir və təhsildən hökumət siyasətlərinə qədər geniş bir spektri əhatə edir.

Beləliklə, apardığımız araşdırmalardan məlum olmuşdur:

- Elita, elitarlıq, elitar və kütləvi mədəniyyətlərlə bağlı fəlsəfi fikir tarixində fərqli və ziddiyyətli fikirlər mövcuddur;
- Elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı əlaqəliliyi öz müsbət təsirini göstərir;
- Ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətin kütləvi mədəniyyətin inkişafına təkanverci təsiri özünü göstərmişdir;
- İnkişafın ayrı-ayrı sahələri üzrə elitanın əldə etdiyi yeniliklər digər sahələrlə də, eləcə də mədəniyyətdə də inkişafetdirici qüvvəsini sübut etmişdir;
- Hüquqi, siyasi, iqtisadi, dini, elmi və digər sahələr elitalarının mədəniyyətin inkişafında mühüm rolu olduğu kimi, mədəniyyət sahəsi elitasının da digər sahələrin inkişafında əhəmiyyəti bütün tarixi dövrlərdə özünü göstərmişdir.

Kütləvi mədəniyyətlə bağlı bir sıra fərqli fikirlər mövcuddur. H.Markuzeyə görə XX əsrin əvvəllərində mövcud olan mexanikləşdirilmiş istehsal bütün istiqamətlərə, eyni zamanda asudə vaxtın səmərəli təşkilinə, maddi və mənəvi mədəniyyətə öz mənfi təsirini göstərir və totalitarlığın aparıcı mövqeyini ifadə edir (18, s. 48-49).

Hazırkı dövrdə elitar və kütləvi mədəniyyətin tədqiqində mövcud olan nəzəriyyələrdən biri də kommunikativ nəzəriyyədir.

Cəmiyyətdə insanların ünsiyyəti, məlumatların kütlələrə çatdırılması kütləvi mədəniyyətin mühüm sosial funksiyası kimi özünü göstərir. Məhz kommunikasiya vasitələri ilə kütləvi mədəniyyətdən bütün insanlar yararlanmaqdadırlar.

Kanada sosioloqu M.Maklyüen (1911-1980) kütləvi mədəniyyətlə bağlı araşdırmalarında kütləvi kommunikasiyanın yeni mədəniyyət tipini yaratdığını və formalaşdırdığını qeyd

edir. “Quttenberqin qalaktikası”, “Rabitə vasitələrinin dərki” (1964), “Mədəniyyət bizim irsimizdir” əsərlərində o vurğulayır ki, “Sənaye və tipoqrafik insan” dövrün çıxış nöqtəsini İ. Quttenberqin (XV əsr) kəşf etdiyi çap dəzgahı təşkil edir (5, s. 185).

Sosioloqun fikrinə görə kütləvi informasiyanın müasir vasitələrinin “yeni insan”ın formalaşmasında mühüm əhəmiyyəti vardır. Bu formalaşma elektron informasiya vasitəsi ilə həyata keçirilir (5, s. 185).

Mədəniyyətin kütləviləşməsində kütləvi ünsiyyət vasitələrinin təsiri ilə təfəkkürlərdə standartlaşma baş verir və bunun nəticəsində də bəzən insanlar öz fərdi fəaliyyətini, qabiliyyətlərini belə itirirlər. Mədəniyyətin kütləvi xarakter almasında kommunikasiya vasitələri tərəqqipərvər əhəmiyyətə malikdir. Bu vasitələrlə elm və mədəniyyətlə, həmçinin digər sahələrin inkişafı ilə bağlı kütlələr məlumatlandırılır. Lakin yadda saxlamaq lazımdır ki, bu kommunikativlikdən şəxsi mənafelər üçün istifadə etmək bir o qədər də düzgün deyil, cəmiyyət daxilində qıcıqlandırıcı məlumatlara yol verilməməlidir və milli mövqe nəzərə alınmalı, etik qaydalar gözlənilməli, amansız döyüş, qəddarlıq, terrorizm, narkomaniyaya qarşı maarifləndirici informasiyaya yer verilməlidir. Eyni zamanda kütləvi mədəniyyətin həddən artıq “şişirdilmiş qəhrəmanları” təbliğ olunmamalıdır.

Müasir dünyanın real mənzərəsində zorakılıq mövzusu əks olunur, kütləvi mədəniyyətdə bu mövzu sürətlə yayılmaqdadır. Hesablamalara görə ABŞ televiziya vaxtının 40%-i zorakılıqla bağlı verilişlər təşkil edir, bu verilişlər sırasında bədii filmlərə xüsusilə önəm verilir ki, bu da gənc nəsildə zorakılığa meylliliyin qarşısının alınması istiqamətində görüləcək işlərin artırılmasını tələb edir.

Kütləvi kommunikasiya vasitəsi ilə belə mənfi nümayişlər uşaq psixologiyasına daha tez təsir göstərir və uşaqlar reallıqla uydurma arasındakı səddi anlamaqda çətinlik çəkirlər. Belə olan halda təkcə Amerika televiziyası yox, digər ölkə televiziya və kommunikasiya vasitələri də cinayətkarlığın “özünəməxsus məktəbi”nə çevrilir.

Asiya, Afrika və Latın Amerikası tədqiqatçılarının fəlsəfi yazışmalarında kommunikativ nəzəriyyələrin əhəmiyyətindən bəhs edilir və burada qərbləşmənin, qloballaşmanın təsirindən də yan keçilmir (19, səh. 38).

Müasir ictimai-siyasi mühitdə "millət, "millətçilik" anlayışlarının işlədilməsi təbiidir. Çünki ayrı-ayrı xalqların milli mədəniyyətinin yaşanması, qorunması, təbliği, gələcək nəsillərə ötürülməsi və bundan ötrü kütləviləşmədə itirilməməsi üçün "fərqləndirilmə"nin mövcudluğu vacibdir. Təbiidir ki, hər bir dövlət daxilində bundan istifadə edilərək mentallıq formalaşdırılır (14, səh. 34).

Millətin identiklik və həmrəylik hisslərinin birliyindən bəhs edən rus filosofu Y.D.Qranin Rusiyada etnik özünüdərkin milli özünüdərkdən üstünlüyünü qeyd edir (10, səh. 16-17). Müasir dövrün tədqiqatlarında “millət” anlayışının məzmununda əsasən dövlətlərin zəruriliyi əsas götürülür (8, səh. 6-17). Çağdaş araşdırmalarda “identiklik”, həmçinin sosial təsisatlara aid edilir ki, bu zaman siyasi bərabərlik, qanunun aliliyi, ideologiyanın müdafiəsi, vətəndaş həmrəyliyi və dövlətçilik ön plana çəkilir (15, səh. 77). Eyni zamanda tədqiqatçılar milli mədəniyyət anlayışını dövlət identikliyi ilə əlaqələndirirlər. Onlar həm də millətçiliyə öz münasibətlərini bildirirlər (9, səh 7-9).

Hər bir milli mədəniyyətin yaradıcısı xalq olduğundan “mədəni xalq” anlayışı da sivil xalqa məxsusdur (7). Həmçinin tədqiqatlarda dinin mədəni formalaşmada mühüm yeri, dini institutların sivilizasiyada əhəmiyyəti də dəyərləndirilmişdir (11).

A.Toynbi, O.Şpenqler və digər filosoflar inkişafın əvvəlcədən proqnozlaşdırılmasının və həmçinin tarixin obyektiv gedişatına təsir göstərməsinin qeyri-mümkünlüyünü qeyd etmişlər. Təbii ki, milli mədəniyyətlərin daxili mexanizmi olan elitar mədəniyyətin də hər hansı tarixi dövrdə, hansı xalq tərəfindən tərəqqi edəcəyini əvvəlcədən bildirmək qeyri-mümkündür (13,

s.188).

Tədqiqatçılar mənəvi mədəniyyətlə bağlı mövcud sosial dinamikadan bəhs etmiş, bu sahədəki çətinliklərin aradan qaldırılmasını və imkanların düzgün qiymətləndirilməsini vacib saymışlar (12, səh. 86) Tədqiqatlarda inkişafda üstqurumun bazisə müsbət təsiri nəticəsində milli mədəniyyətlərin də inkişaf etdiyi əks olunur (22).

Formalarından, yerinə yetirdiyi müxtəlif aspektli funksiyalarından asılı olmayaraq mədəniyyətin əsas mahiyyəti və məğzi insanların maarifləndirilməsi, savadlandırılması, insanların etik və estetik cəhətdən tərbiyələndirilməsi kimi mühüm nüanslardır. Bu baxımdan həm maddi mədəniyyət və həm də mənəvi mədəniyyət insanın hərtərəfli kamilləşməsinə xidmət edir. “Tarixi inkişaf prosesində mədəniyyətin bir sıra funksiyaları formalaşmışdır: ətraf aləmə uyğunlaşma funksiyası, dərketmə funksiyası, informativ funksiya, kommunikativ funksiya, requlyativ funksiya, insan qruplarının inteqrasiyası funksiyası, sosiallaşma funksiyası” (5, səh. 31-33).

Mədəniyyət insanı digər canlılardan ayıran ən önəmli fenomen olmaqla yanaşı, bütün canlılar içərisində yalnız insana xasdır. Ümumiyyətlə, müxtəlif yönümlü mərasimlər təşkil etmək insanların mənəvi ehtiyacından irəli gəlir. Mədəniyyət sadəcə olaraq, insanın təbiətə düşünülmüş şəkildə yaradıcı müdaxiləsi, təbiətin insan tərəfindən dəyişdirilməsi ilə kifayətlənən bir anlayış deyildir. Mədəniyyət daha geniş bir çərçivədə insanın əxlaqi, sosial yönümlü tərbiyələndirilməsini, intellektini, istedadını əhatə edir.

**Elitar və kütləvi mədəniyyətlərin səciyyəvi xüsusiyyətlərinin təhlili**

Elitar və kütləvi mədəniyyətin səciyyəvi xüsusiyyətlərinin təhlili olduqca qədim tarixə malikdir. Bu baxımdan hələ 2500 il bundan əvvəl Qədim Yunanıstanda hər iki mədəniyyət forması haqqında meydana gələn ilkin fikirlər ibtidai formada olsa da, sonrakı dövrdə irəli sürülən ideyaların əsasını qoymuş oldu. Sonralar, xüsusilə də, XX əsrdə Qərb filosoflarının, kulturoloqlarının elitar və kütləvi mədəniyyət haqqındakı nəzəriyyələri öz orijinallığı ilə seçilirdi. “Bir çox kulturoloq, filosoflar mədəniyyətin bu iki sosial formasının çözümü və cəmiyyətin inkişafında rolunu müəyyən etməyə çalışmışlar. Bu baxımdan Xose Orteqa-i-Qasset, M.Maklyüen, E.Moren, D.Dyüi, E.Fromm, R.Mixels, Q.Moska, B.Astafyev kimi tanınmış alimlərin tədqiqatları maraqlı və elmidir. Elitar və kütləvi mədəniyyətin izahını hələ e.ə. V əsrdə mövcud olmuş Kirenaik məktəbinin yaratdığı etik təlim-gedonizm və onun böyük nümayəndəsi Aristipdə, sonrakı dönəmdə A.Şopenhauer, F.Nitsşe, Z.Freyd kimi filosof və psixoloqların əsərlərində axtarmaq olar” (21).

Müasir dövrdə həm obyektiv, həm də subyektiv proses kimi qabarıq bir şəkildə özünü geniş sahədə biruzə verən qloballaşma hadisəsi zamanı kütləvi xarakterə malik olan milli mədəniyyət nümunələri digər mədəniyyətlər tərəfindən assimilyasiya prosesinə məruz qalır və nəticədə milli xarakterə malik olan kütləvi mədəniyyət nümunələri özünəməxsusluğunu və orijinallığını itirir. Kütləvi mədəniyyətin bir hissəsi olan adət-ənənələrin, milli mədəniyyətin qloballaşma fenomeninə məruz qalması nəticəsində milli mədəniyyətin unudulması kimi problemlər ortaya çıxır. Həmçinin, elitar və aristokrat təbəqənin də yaratdığı milli xarakterli mədəniyyət nümunələri də qloballaşma prosesinə məruz qalır.

Elitar və kütləvi mədəniyyətin bir-biri ilə qarşılıqlı əlaqəsində müasir innovasiyaların böyük rolu vardır. Qeyd edilmişdir ki, “ ... müxtəlif mədəni sahələr və mədəni layların dialoqu gedişində informasiya bolluğu və ya, əksinə, informasiya qıtlığı mədəni innovasiyanın meydana gəlməsi üçün mənbə rolunu oynayır” (6, səh. 142).

Kütləvi mədəniyyətin xüsusiyyətləri XX əsrdə bir sıra fəlsəfi əsərlərdə geniş şəkildə təhlil olunmuşdur. Xüsusilə də ispan filosofu və sosioloqu Xose Orteqa-i-Qasset və Amerika sosioloqu Daniel Bell bu mövzuya geniş müstəvidə toxunmuşlar. Nəticədə də kütlənin (camaat) və bu kütlənin yaratdığı mədəniyyət nümunələrinin xarakteri təhlil edilmiş, kütləvi

mədəniyyətin subyekti məsələləri müzakirəyə çıxarılmışdır. Ümumiyyətlə, kütləvi mədəniyyətin əsas xüsusiyyəti onun idraka deyil, instinktlərə bağlı olmasıdır. Bu nöqteyi-nəzərdən də kütləvi mədəniyyət öz estetik və mənəvi səviyyəsinə görə elitar mədəniyyətdən aşağı pillədə dayanır, çünki kütləvi mədəniyyətdə barbarlıq elementləri də ehtiva oluna bilər.

Müasir dövrdə kütləvi mədəniyyət nümunələrinin geniş yayılmasının əsas səbəbi açıq bazar iqtisadiyyatının və kommersiyalaşma prosesinin mədəniyyət sahəsində də vüsət tapmasıdır. Son dövrlərdə kütləvi kommunikasiya vasitələri istehsalının və istehlakının inkişaf etməsi məsələsi də kütləvi mədəniyyət sahəsinin genişlənməsinə xidmət edir. Kütləvi kommunikasiya vasitələri kütləvi mədəniyyətin inkişafında mühüm rol oynamaqla bərabər, həmçinin böyük salonların, səhnələrin, stadionların yaranması sahəsində də əhəmiyyət kəsb edir.

Hazırda yer üzündə vahid mədəni məkanın meydana gəlməsi sayəsində televiziya kanalları vasitəsilə milyonlarla tamaşaçı kütləvi mədəniyyətin auditoriyasını təşkil edir və bununla yanaşı kino ekranları vasitəsilə kütləvi mədəniyyət öz çərçivəsini genişləndirir. Kütləvi mədəniyyətin geniş arenada fəaliyyət göstərməsi isə onun ictimai şüura təsiri ilə birbaşa əlaqədardır. Bütün mədəniyyət məhsullarının kütləvi şəkildə yayılması vasitəsilə resipiyent formasında çıxış edən oxucu, tamaşaçı, dinləyici də bu və ya başqa qaydada kütləvi mədəniyyətin istehlakçısına çevrilir. Müasir dövrdə kütləvi mədəniyyət istehlakçı şüurunun əsas forması qismində çıxış edir, bu məsələ də öz növbəsində passiv xüsusiyyətə malik olan kütləvi mədəni dəyrlərin formalaşmasına gətirib çıxarır. Kütləvi mədəniyyət bəsitliyi və sadəliyi ucbatından insanların böyük əksəriyyətini manipulyasiya edərək onları çox asanlıqla öz təsir dairəsinə alır.

Kütləvi mədəniyyət anlayışının daha ətraflı dərki üçün ilk növbədə “kütləvi cəmiyyət”in mahiyyətini anlamalıyıq. Elitizm nəzəriyyəsinə görə bəşər tarixində, əzəldən iki təbəqə mövcud olmuşdur: elitar və kütləvi cəmiyyət. «Kütləvi cəmiyyət» tənqidçilərini birləşdirən ümumi cəhət ondan ibarətdir ki, cəmiyyətdə elita ilə kütlə arasındakı normal, qarşılıqlı əlaqələrin pozulması bu iki təbəqə arasındakı fərqin ən başlıcasıdır. «Kütləvi cəmiyyət» konsepsiyaları əsasında formalaşan doktrinanın yaranmasına əsas səbəb xalq kütlələrinin tarixdəki rolunun əhəmiyyətini ifadə edən ideyaların səslənməsi və sosial tendensiya xarakteri kəsb etməyə başlaması idi.

Kütləvi mədəniyyət özündə antiavanqardizm və antimodernizm kimi xarakterləri ehtiva etmişdir. Məsələyə bu prizmadan yanaşdığımız təqdirdə modernizm və avanqardizmin kütləvi mədəniyyət üçün mürəkkəb və dolaşıq olması faktı ortaya çıxır, bu səbəbdən də modernizm və avanqardizm cərəyanlarına məxsus texnikakütləvi mədəniyyətin istehsalçıları tərəfindən sadələşdirilməyə məruz qalır. Məlumdur ki, kütləvi mədəniyyət inkişaf etmiş demokratik cəmiyyətdə daha çox inkişaf edir, buna bariz nümunə kimi, Amerikada Hollivud tərəfindən yaradılan kütləvi mədəniyyəti göstərə bilərik. Amma bunun əksi olaraq totalitar cəmiyyətlərdə isə demək olar ki, kütləvi və elitar mədəniyyətin bir-birindən ayrılması halları yoxdur. Kulturoloqlara görə, elitar və kütləvi mədəniyyətlərin uyğunlaşma və ya birləşməsində qeyri-adi bir şey yoxdur. Sadəcə olaraq elitar mədəniyyət kütləvi mədəniyyətin törəməsi kimi zəruri formada meydana çıxır. Kütləvi mədəniyyətin ekspansiyası cəmiyyətdə bir submədəniyyətin digəri ilə əvəz olunmasına şərait yaradır ki, bu da elitar avanqard mədəniyyət səviyyəsində özünü təzahür etdirir. Elitar və kütləvi mədəniyyətlər ayrı-ayrı formalarda təşəkkül tapır. XX əsrin 60-cı illərinin sonunda «kütlə tərəfindən dərk edilməyən» azlığın mədəniyyəti kütləvi mədəniyyətə mane olmağa başlayır. Lakin sonralar bu mədəniyyət elitarlığın avanqard təbəqəsi kimi özünü göstərir (5, s. 172).

Bəzi alim-tədqiqatçılara görə gerçəkliyin, inkişaf meyllərinin, ictimai həyatın demək olar ki, bütün sahələrinin, tarixi dəyişikliklərin mərkəzində insan dayanır, həyat və dünya qəhrəmanları isə insanlardır (2, *səh.* 20).

“İctimai-siyasi quruluşlara uyğun olaraq hər bir cəmiyyətin mədəniyyəti onun xarakterinə uyğunlaşdırılır. Cəmiyyətin siyasi, iqtisadi məzmunu mədəniyyətin inkişaf modellərində öz əksini tapır. Bununla yanaşı mədəniyyət bütün dövrlərin insani münasibətlərini, etik və estetik baxışlarını, etnoqrafiyasını, milli-psixoloji xüsusiyyətlərini özündə qoruyub saxlayır. Eyni zamanda mövcud cəmiyyətin həyat tərzi, siyasəti, istehsal münasibətləri, dini və elmi baxışları, texnologiyası, ədəbiyyat və incəsənəti və s. xüsusiyyətləri mədəniyyətin əsas tərkib hissəsi kimi özünü biruzə verir” (3, səh. 9).

İnsanlar ayrı-ayrı dövrlərdə məkan və zaman daxilində müvafiq məişət və davranış tərzləri ilə zəngin irs yaratmışlar və bu irs sonrakı tarixi dövrlərə ötürülmüşdür. Müxtəlif tarixi dövrləri özündə əks etdirən və maddiləşən yazılı qaynaqlar şəklində mövcud olan, qorunan mədəni sərvətlər kimi bu irs zaman-zaman öyrənilmiş və qədim mədəniyyətlərin dərk mənbəyi kimi, mühüm amilə çevrilmişdir. Bu baxımdan digər sahələrdə olduğu kimi mədəniyyətdə də, həmçinin elitar və kütləvi mədəniyyətlərdə müxtəlif nəzəriyyə və baxışların yaranmasına səbəb olmuşdur.

**Elitar və kütləvi mədəniyyətlərdə maarifçilik ideyalarının əhəmiyyəti**

Elitar mədəniyyətdən bəhs edərkən maarifçilik ideologiyası ənənələrini də vurğulamaq lazımdır. Maarifçilik sayəsində müvafiq məlumatları əldə edən elita kütlələrə mədəniyyətin bu və ya digər sahələri haqqında ən vacib informasiyaları verməklə onları zənginləşdirir, zövqlərin inkişafına təkan verir, gələcək fəaliyyətlərində fəallığını təmin edir. Ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətdə mövcud olmuş mühafizəkarlıq ideyalarında əsasən elita tərəfindən mədəniyyət və incəsənətin tamamilə kütlələrə bəxş edilməsi tövsiyə olunurdu. Əgər belə olmasaydı yüksək zövqə və bacarığa, bilik və dünyagörüşə malik elita digərlərindən fərqlənməzdi. Həmçinin məxfilik və yüksək mədəniyyət vasitəsilə elita kütlənin səviyyəsinə enməli idi. Bu cür ideyalar elitar mədəniyyətin sələflərinə xasdır (1, səh. 18).

Tanınmış ispan filosofu Orteqa-i-Qasset elitar mədəniyyət haqqındakı konsepsiyasında köhnə və yeni incəsənət məsələlərinə toxunaraq onlar arasındakı fərqi yeni mədəniyyətin elitaya ünvanlanmasında görür. Alimin bu konsepsiyasından belə nəticəyə gəlmək olar ki, yeni mədəniyyət və incəsənətin kütlələr tərəfindən bütövlükdə dərki mümkün deyil, həm də mütləq sayılmır.

Bir qisim alimlər hesab edirlər ki, mədəniyyət və incəsənət elitaya aid olmaq xalqla əlaqəli deyil. Belə ideyalar T.Eliot və E.Painnot tərəfindən göstərilir. C.Santayana hesab edir ki, mədəniyyət çətin fəaliyyətdir və bəzən nadir hesab olunmalı, bəzən isə orta səviyyəli sayılmalıdır. O, qeyd edir ki, zövqlü və bacarıqlı, xüsusi istedada malik insanların fikirlərinə qarşı çıxmaq mədəniyyəti yaradan mənbələrə qarşı çıxmaq deməkdir (17, s. 125).

Milli mədəniyyətlərin təşəkkülü, formalaşması və inkişafında həm mühit, həm də təkamül baxımından qarşılıqlı əlaqələrin əhəmiyyəti özünü göstərir. Elitar mədəniyyətdə məkan və şəraitin yeri mühüm olduğu kimi, kütləvi mədəniyyətdə də məkan və şəraitin əhəmiyyəti böyükdür. Elitar incəsənətin formalaşmasında mühit, şərait kimi, ayrı-ayrı fərdlərin yüksək yaradıcılıq bacarıqları getdikcə millilikdən çıxaraq bəşəriliyə çevrilir.

Teosentrizm mövqeyində duran Orta əsr filosofları ümumbəşəriliyi Allahın yaratdığı məkanda, yəni dövlətdə, “günaha batmış” insanın həmin günahlardan təmizlənməsində görürdülər” (4, s. 38-39).

Dini istiqamətli baxışlarda milli mədəniyyətin bəşər mədəniyyətinə çevrilməsində müxtəlif nəzəri müddəalar irəli sürülür. Ümumiyyətlə, istiqamətindən asılı olmayaraq nəzəriyyəçilərin fikrincə, öz elitar səviyyəsi ilə seçilənlərin özünü təqdim etməsi, özünü-təzahürü, özünüifadəsi prosesi baş verirsə, kütləvi mədəniyyət prosesində isə kütlələrin tələbatına görə istehlak prosesi yaranır. Təbii ki, kütlənin bir hissəsi bundan bəhrələnir, tələbatlarına görə onlar öz dünyagörüşlərinə uyğun zənginləşmə prosesində olurlar. Bu

baxımdan T.Adorno öz tədqiqatlarında qeyd edir ki, elitar və kütləvi mədəniyyət ümum-sosioloji yox, tarixi fenomendir.

Beləliklə, elitar və kütləvi mədəniyyətin mərkəzində yaradıcı insan durur, insan tərəfindən yaradılan mədəni sərvətlər ayrı-ayrı tarixi dövrlərdə müxtəlif məzmunda və formada olmuş, sivilizasiyanın tərkib hissəsi olmaqla, mifoloji və dini hadisələrlə yanaşı, əksər hallarda real fəaliyyəti özündə əks etdirə bilmişdir.

Apardığımız araşdırmalardan belə nəticəyə gəlmək olar:

1. Müxtəlif tarixi dövrlərdə mədəniyyətin sosial-fəlsəfi dərkinə fərqli mövqelərdən yanaşılmış, millilik və bəşərilikdə müqayisəli baxışlar mövcud olmuşdur.
2. Ayrı-ayrı tarixi mərhələlərdə baş vermiş dəyişikliklərə uyğun olaraq milli mədəniyyətin inkişafı özünü göstərmiş, bəzən isə baş vermiş ziddiyyətlər zəminində həmin xalqın mədəniyyətində, xüsusən elitar inkişafında çətinliklər baş vermişdir.
3. Elitar və kütləvi mədəniyyətlərin inkişafında irəli sürülmüş nəzəriyyələrin də mühüm əhəmiyyəti olmuşdur. Belə ki, nəzəri müqayisələr və fərqləndirmələrdən istifadə edilərək yeni elitar qüvvənin yaranması, daha sonra isə kütləviləşmə ilə nəticələnmə özünü göstərmişlər.
4. Elitar və kütləvi mədəniyyətlərin inkişafında elektron informasiya və digər kütləvi ünsiyyət vasitələrinin mühüm əhəmiyyəti olmuşdur.
5. Elitar və kütləvi mədəniyyətlərin səciyyəvi xüsusiyyətlərinin təhlili qədim tarixə malik olsa da, sonrakı dövrlərdə irəli sürülən ideyaların əsasını qoymuşdur. Xüsusilə də, XX əsrdə Qərb filosoflarının elitar və kütləvi mədəniyyət haqqındakı nəzəriyyələri öz orijinallığı ilə seçilmişdir.
6. Müasir dövrdə elitar və kütləvi mədəniyyətlərin inkişafı innovasiyalılıqla bilavasitə əlaqədardır. Yəni, mədəniyyət həmişə “yeni”ni təbliğ edir, kütləviləşmə ilə nəticələnir.
7. Mədəniyyət üçün məkan cəmiyyətdir, bu da sivilizasiyanın inkişafı ilə bağlıdır. Yaradıcı insan tərəfindən ərsəyə gətirilən mədəni sərvətlər real fəaliyyəti özündə əks etdirə bilmişdir.

**Nəticə**

Ayrı-ayrı tarixi dövrlərdə yaradıcı insanların xarakterindən, bilik, bacarıq və vərdişlərindən asılı olaraq mədəniyyət müxtəlif formalarda mövcud olmuşdur. Alim-filosoflar zaman-zaman mədəniyyətin sosial-fəlsəfi dərkinə fərqli yanaşmış, milli və bəşəri mədəniyyətlə əlaqədar müqayisəli baxışlarını bildirmişlər. Bu baxımdan J.Vikonun, İ.Kantın, V.Hegelin, R.Uilyamsın, E.Boqardusun, Z.Freydin elmi yanaşmalarında maraqlı fikirlər mövcuddur (16, s. 5). Elitarlıq və kütləvilik anlayışları müasir cəmiyyətdə əhəmiyyət kəsb edir. Cəmiyyətin elitaya və kütləyə bölünməsi zərurəti elitarizm konsepsiyası ilə məşhurdur. İlkin elitarizm ideyalarının yaranması ilə bağlı qeyd edək ki, hələ qədim dövrdə Platon Yunanistanda kalokadatiya nəzəriyyəsini irəli sürmüşdür. Bu nəzəriyyəni platondan əvvəl Pifaqor irəli sürsə də, Platonun bu nəzəriyyəsindən Aristotel də bəhrələnmişdir. Bu nəzəriyyədə Platonun irəli sürdüyü “İdeal dövlət”də mükəmməl bilik və bacarığa malik elitar təbəqə meydana çıxır (20, s. 109-110).

İlkin elitar nəzəriyyələr sırasında Çin filosofu Konfutsi, Qərb fəlsəfi fikrində mühüm yeri olan Akvinalı Fomanı göstərmək olar. Elitar mədəiyyətlə kütləvi mədəniyyət arasındakı ziddiyyətlərin dərinləşməsi artıqXX əsrdə son dərəcə gücləndi. Bu nəzəriyyənin əsas müddəaları alman filosofları Artur Şopenhauer və onun davamçısı Fridrix Nitsşenin, eyni zamanda ispan filosofu Xose Orteqa-i Qassetin yaradıcılığında əks edilmişdir.

Kütləvi mədəniyyətlə də bağlı fəlsəfi baxışlarda fərqlilik mövcuddur. H.Markuzeyə görə

XX əsrin əvvəllərindən etibarən mexanikləşdirilmiş istehsal digər istiqamətlərlə bərabər, maddi və mənəvi mədəniyyətə də öz mənfi təsirini göstərmişdir (18, s. 48-49). Kanada sosioloqu M.Maklyüen kütləvi mədəniyyətlə bağlı araşdırmalarında yeni mədəniyyət tipinin kütləvi kommunikasiya vasitəsilə formalaşdığını qeyd etmişdir (5, s. 185). Asiya, Afrika və Latın Amerikası alim-tədqiqatçılarının fəlsəfi fikirlərində kommunikativ nəzəriyyələrin mühüm əhəmiyyəti vurğulanır və eyni zamanda burada qloballaşmanın, qərbləşmənin də təsiri göstərilir (19, s. 38).

Ayrı-ayrı xalqların milli mədəniyyətlərinin yaşanması, qorunması və gələcək nəsillərə ötürülməsi, kütləviləşmədə itirilməməsi müasir ictimai-siyasi mühitdə “millət”, “millətçilik” anlayışları ilə də əlaqələndirilir (14, s. 34). Rus filosofu Y.D.Qranin millətin identiklik və həmrəylik hisslərinin birliyindən bəhs edərək Rusiyada etnik özünüdərkin milli özünüdərkdən üstünlüyünü göstərir (10, s. 16-17). Müasir dövr tədqiqatlarında “millət”in məzmununda dövlətin vacibliyi əsas götürülür (8, s. 6-17). Eyni zamanda “identiklik” sosial təsisatlara aid edilməklə, siyasi bərabərlik, qanunun aliliyi, vətəndaş həmrəyliyi və dövlətçilik ön plana çəkilir (15, s. 77), milli mədəniyyət anlayışı dövlət identikliyi ilə əlaqələndirilir (9, s. 7-9).

A.Toynbi, O.Şpenqler və digər filosoflar inkişafın, həmçinin elitar mədəniyyətin hansı xalq tərəfindən tərəqqisini əvvəlcədən bəyan etmənin qeyri-mümkünlüyünü bildirmişlər (13, s. 188). Alimlər mənəvi mədəniyyətlə bağlı imkanların düzgün qiymətləndirilməsini vacib hesab etmişlər (12, s. 86), milli mədəniyyətin inkişafında üstqurumun bazisə müsbət təsirini aydınlaşdırmışlar (21). Tədqiqatlarda elitar və kütləvi mədəniyyətlərin bir-biri ilə qarşılıqlı əlaqədə inkişaflarında müasir innovasiyaların mühüm əhəmiyyəti qeyd edilmişdir (6, s. 142).

Bəzi araşdırmalarda insanın cəmiyyətin hərtərəfli inkişafında birinci amil olduğu, baş verən bütün fəaliyyətdə, yeniliklərdə “mərkəz”də olduğu isbat edilmişdir (2, s. 20). Bir qisim filosoflar mədəniyyət və incəsənətin elitaya aid olmasını xalqla əlaqələndirmirlər. T.Eliot və E.Painnotun fəlsəfi baxışlarında buna rast gəlinir. C.Şantayana mədəniyyətin çətin fəaliyyət olduğunu və zövqlü, bacarıqlı, yaradıcı insanlara qarşı çıxmamağı tövsiyə etmişdir (17, s. 125). Teosentrizm mövqeyindən çıxış edən Orta əsr filosofları ümumbəşəriliyi Allahın yaratdığı məkanda “günaha batmış” insanın həmin günahdan təmizlənməsində görürdü (4, s. 38-39).

Beləliklə, mədəniyyətin sosial-fəlsəfi dərkinə müxtəlif tarixi dövrlərdə fərqli yanaşmalar olmuşdur, elitar və kütləvi mədəniyyətlərin inkişafında irəli sürülmüş nəzəriyyələrin mühüm təsiri özünü göstərmişdir. Müxtəlif məkanlardakı dəyişikliklərə müvafiq olaraq milli mədəniyyətlərin inkişafı özünü göstərmiş, ayrı-ayrı səbəblərdən yaranan ziddiyyətlər zəminində həmin xalqın elitar mədəniyyətinin inkişafında çətinliklər mövcud olmuşdur. Müasir dövrdə elitar və kütləvi mədəniyyətlər innovativ proseslərlə bilavasitə bağlıdır, mədəniyyət həmişə “yeni”ni təbliğ edir, bu da getdikcə kütləviləşməyə səbəb olur.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Dadaşov X., Sadıxov A. “Azərbaycan mədəniyyəti və ünsiyyət problemi”. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsrləri. Bakı 2014, №18.
2. Əmirxanov S. “Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasına incəsənət muzeylərindən istifadənin təsiri” *mövzusunda pedaqogika elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyası. Bakı, 1996, 169* s.
3. Hüseynov İ., Əmirxanov S. İctimaiyyətlə əlaqələr. Ali məktəblər üçün dərslik. Azərbaycan dilində. Bakı, Bakı Biznes Universiteti, 2017, 480 səh.
4. Hüseynova N.Ə. “Milli mədəniyyətlər zaman və məkan kontekstində sosial-fəlsəfi təhlil” dissertasiya mövzusu: elmi dərəcə. Bakı, 2014, 158 səh.
5. M.J.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynovanın ümumi redaktəsilə. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı: Sabah, 2010, 876 səh.

6. Rzaquliyev P. Mədəniyyətdə ənənə və innovasiya münasibətləri. “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” mövzusunda beynəlxalq konfrans. Bakı: Təknur MMC, 2012.
7. Аксюнов Б.В. Кризис Традиционных форм диховной культуры в современной цивилизации. Автореф. **Дис…** канд. Филос. Наук. Ставрополь: 2002, 24 с.
8. Алиев И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989, 160 с. 123.
9. Андерсон Б., Бауэр О., Хрох М. Нации и национализм. Москва: Праксис, 2002, 418 с.
10. Гранин Ю.Д. Станет ли Россия «нациоральным государством?» // Вопросы философии, 2011, №1, с.15-27.
11. Ивин А. Философия истории: Учебное пособие. Москва: Гардарики. 2000, 528 с.
12. Майнцер К. Вызовы сложности в XXI веке. Междисциплинарное введение // Вопросы философии, 2010, No 10, с.84-98.
13. Мучник В.М. В поисках утраченного смысла истории: Генезис и эволюция исторических взглядов А.Дж. Тойнби. Томск: изд. Томского Ун-та, 1986, 199 с.
14. Национализм в поздне – и посткоммунистической Европе. Т.1. Неудавшийся национализм многонациональных и частично начиональных государств. М.: РОССПЕН. 2010, 430 с.
15. Семеноу Ю.И. Философия истории (Общая теория основные проблемы, идеи и конценции от древности до наших дней). М.:Современные тетради, 2003, 776 с.
16. Философия культуры. Становление и развитие / под редакцией М.С. Кагана, Ю.В. Перова, В.В. Прозерского, Э.П.Юровской. СПБ.: Издательство «Лань», 1998, 448 с.
17. Шварц Т. От Шопенгауера к Хайдеггеру. Пер. Ц. Арзаканьяна. М.: Прогресс. 1964, 356 с.
18. Monotch H. Noah McClain. Dealing with urban terror: heritages of control, varieties of intervention, strategies of research // International Journal of Urban and Regional Research Volume 27, Issue 3, pages 679-698, September, 2003.
19. Silvio Wisbord and Claudia Mellado. Qərbləşmə, kosmopolitizm və qloballaşma: kommunikasiya nəzəriyyələrinin geomədəni sərhədləri // ISI Journal Citation Reports-©-Ranking: 2011: 13/72 (Communication) p.30-52.
20. *Zeynalov* M.B. *Fəlsəfə tarixi (*Qərb *fəlsəfəsi). Bakı*: Azərbaycan, 2001, 535 səh.
21. ƏlibəyliElçin. Elitarvəkütləviməduniyyət. http: //elchinalibeyli.blogspot.com/2013/05/
22. Бунаков М.Ю., Лукин Б.Н. Национализм и национальная идентичность в условиях глобализации: проблемы концентуализации/“Credonew”, 2006, No 2//http: //credonew.ru

**Месхети Джафарова**

## РАЗЛИЧИЯ В ФИЛОСОФСКИХ ВЗГЛЯДАХ НА ЭЛИТУ И МАССОВУЮ КУЛЬТУРУ

### *Резюме*

Важность взаимодействия с точки зрения окружающей среды и эволюции очевидна в формировании, пстановлении и развитии национальных культур. Так же как пространство и условия важны в элитарной культуре, так же важны пространство и условия в массовой культуре. В процессе становления элитарного искусства, среда, условия, высокие творческие способности личности постепенно покидают национальность и становятся человечностью.

***Цель*** – цель исследования изучить социально-философские аспекты элитных и массовых культур, определить положительные эффекты взаимозависимости, проанализировать их характеристики и сравнить прямую связь этих культур с инновациями и получить результаты.

***Методология*** – изучение философских взглядов и теорий о различных подходах к социально-философскому пониманию элитарной и массовой культур, сравнительных взглядов

на национализм и гуманность, противоречий между элитой и массами в разные исторические периоды.

***Результат –*** различные философские течения анализировали формирование, развитие и значение элитных и массовых культур в человеческой культуре.

***Ключевые слова:*** *элитарная и массовая культура, познание, время, пространство, средства информации, инновация, теория, цивилизация.*

**Meskheti Jafarova**

## DIFFERENCES IN PHILOSOPHICAL VIEWS ON ELITE AND MASS CULTURES

***Summary***

The article highlights the importance of interaction in terms of both environment and evolution in the formation and development of national cultures. Just as space and conditions are important in elite culture, so are space and conditions important in mass culture. In the formation of elite art, as an environment, conditions, the high creative abilities of individuals are increasingly moving from nationality to humanity.

***Purpose*** – the purpose of the research is to study the socio-philosophical aspects of elite and mass cultures, to determine the positive impact of interdependence, to analyze the characteristics and to compare the direct relationship of these cultures with innovation and to obtain results.

***Methodology*** – study of philosophical ideas and theories on different approaches to the social philosophical understanding of elite and mass cultures, comparative views on nationalism and humanity, the contradictions between the elite and masses in different historical periods.

***Finding*** **–** different philosophical currents analyze the formation, development and importance of elite and mass cultures in human culture.

***Keywords:*** elite and mass culture, cognition, time, media, innovation. theory, civilization